www.kaspi.az 19 dekabr 2015



■ Lao Ma

# Çoxdankı arzu

*hekayə*

- Mən məmur olmaq istəmirəm. Elə ki rütbə almaq məqamı yetişir, mən imkanımı kiməsə verirəm, - mənim müəllimim bu sözləri tez-tez dilə gətirirdi. Ya sinifdə, ya iclaslarda. O istənilən imkandan istifadə edib bu sözləri deyirdi. Ən azı bu sözləri min dəfə təkrar etmişdi.

Həmin müəllim yetmiş beş yaşında dünyasını dəyişdi. Yetmiş dörd yaşı olanda, yəni ölümündən bir il əvvəl o bu mövzuda nəyisə xatırlatdı. Dəqiq bilirəm ki, həmin gün ad günüydü Onun ad gününü təbrik etmək üçün keçmiş tələbə dostlarımla onlara getmişdik. Həmişəki kimi biz ona iri bir tort aparmışdıq.

Müəllimim çox həyəcanlanmışdı. O, özünü elə göstərdi ki, niyə torta bu qədər pul xərcləmişik, az sonra isə bıçaq götürüb tortu dilimləməyə başladı. Biz onun sağlığına tost deyəndən sonra o bizə xəbərdarlıq etdi:

- İndi sizin kimi məmurlar çox da özlərini düşünmürlər. Faktiki olaraq, bəzi adamların sizdən daha potensialı və daha çox bacarığı var, ancaq onlar məmur olmaq istəmirlər.

Biz başımızla onun fikrini təsdiqləyib, "bəli, elədir" dedik. Ancaq hər halda biz özümüzü çox pis hiss etdik, çünki o bizi " məmur" adlandırmışdı.

Biz isə adicə, cavan şöbə rəhbərləri idik.

- Məndən nümunə götürün, - mənim müəllimim özünün başına gələnləri bizə danışmağa başladı.

- Hələ orta məktəbdə oxuyanda sinif müəllimim məndən xahiş etdi ki, sinif nümayəndəsi olum, ancaq mən onun təklifini rədd etdim. Qərara aldım ki, belə bir imkanı başqa bir adama verim. Sonra heç də mənim kimi yaxşı şagird olmayan birisi sinif nümayəndəsi oldu. Sonralar ona yerli hökumətə hesabatçı işi təklif etdilər,



Mer vəzifəsinə qədər yüksəldi. O Çin Xalq Siyasi Məsləhətçisi kimi təqaüdə çıxdı. Əlbəttə, vəzifəsi ona çox rahat həyat şəraiti bəxş etdi.

Universiteti bitirəndən sonra mənə hökumət işində bir vəzifə təklif olundu. Ancaq mən məmur olmaq istəmədim, bunu siz də bilirsiniz Mən universitetdə müəllim işləməyi üstün tutdum. Mənim dövlət qulluqçusu olan sinif yoldaşlarımın çoxu hansısa büroda, idarədə müdir oldular. Hətta onların ikisi nazir müavini oldu. Onlar səlahiyyət sahibiydilər. Hmmm.

1962-ci ilin iyul ayında mənə bir idarədə rəhbər iş təklif etdilər. Eyni zamanda universitetdəki işimi də apara bilərdim. Mən onlara dedim ki, inzibati işlər mənlik deyil. Həm də mənim belə işdə bacarığım yox idi. O vəzifəni Lao Donga verdim. O da universitetdə bizimlə eyni şöbədə işləyirdi. Sonralar o müəllimlikdən əl çəkdi və Universitetin baş katibi oldu. İndi onun mənzili mənimkindən daha genişdir, əlbəttə. Maaşı da mənimkindən çox yüksəkdir.

Mədəni İnqilabdan sonra, bəli, 1977-ci ilin avqust sayında Universitetin Təşkilat komitəsi mənimlə söhbət etdi. Dedilər ki, Təhsil İşləri Şöbəsində direktor yeri boşdur. Xahiş etdilər ki, bu vəzifəni icra edim. Mən yenə də imtina edib, həmin yeri başqa həmkarıma verdim. Həmkarım heç də mənim kimi yaxşı tələbə olmamışdı, ancaq təzə başlayanda çox həyəcanlı idi. Bir neçə ildən sonra o başqa bir universitetə dekan müavini vəzifəsinə irəli çəkildi. İndi o daha çox fayda görür, nəinki mən.

1983-cü ilin aprel ayında universitetin rektoru şəxsən özü mənimlə görüşdü, məni inandırmaq istədi ki, Fəhlə İttifaqında direktor müavini vəzifəsinə getsəm uduzmaram. Bu heç də pis təklif deyildi. Bu təklifi rədd etməzdən əvvəl çoxlu-çoxlu fikirləşdim. Başqa gənc həmkarlarım da bu işə gedə bilərdilər. Mənim əvəzimə o vəzifəyə gedən adam sonralar həmin təşkilatın direktoru oldu. Onun rütbəsi universitetin rektor müavininin vəzifəsi ilə eynidir. O üç dəfə xaricə gedib.

Hələ təqaüdə çıxmazdan qabaq Köhnə Kadrlar şöbəsi məni müşavir kimi işə götürmək istədi. Düzdür, bu işdə heç bir maddi gəlir yox idi. Mən həmişəki kimi bu işi də rədd etdim. Heç uşaqlığımda məmur olmaq fikrim olmayıb. Daha heç kimi günahlandıra bilmərəm. Mənim kresloya hərisliyim yoxdur. Bu işdə işləyənlər özlərini düşünə bilmir. Gərək yaxşı şans olanda başqalarına verəsən. Siz də belə fikirləşmirsiniz? Sizə həmişə belə demirdim?

- Bəli, bəli, bəli, - hər ikimiz xorla dedik. Sonra onun dediklərinə tériflər yağdırdıq, onun sosial dərəcəsini alqışladıq.

Müəllimimiz öləndə biz, onun elçiləri ona son borcumuzu verməyə və onun dəfninə kömək etməyə getdik. Arvadı bizə dedi ki, əri ölüm yatağında olanda onu çağırıb xahiş edib ki, ona təklif olunan məmur işləri haqda nekroloqda da yazılsın. Bunu həyata keçirmək bərk qoz sındırmaq kimiydi. Sonda onun bu arzusu həyata keçirilmədi. Arvadı bundan qane olmadı. Arvadı ayrılıqda məndən soruşdu ki, görəsən ölən adam özünün Dəfn Təşkiletmə Komitəsinin rəhbəri vəzifəsinə seçilə bilərmi? Mən başımı bulayıb ah çəkdim.

Beləliklə, bu müəllimim haqda yazmaqla ona olan hörmətimi göstərmək istədim.